

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 127 (24.014)

8 iyul 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib

İyulun 7-də “Araz” Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir: Muxtar respublikada ərzaq təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verib. Muxtar respublikada əsas kənd təsərrüfatı məhsullarına olan tələbat tamamilə, taxıla olan tələbat isə, əsasən, yerli istehsal hesabına ödənilir. Bu gün taxıla olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsi qarşıda duran əsas vəzifələrdəndir. Bu il taxılın kiloqramı 60, arpanın kiloqramı isə 48 qəpikdən qəbul olunur. Görülən işlərə baxmayaraq, taxılçılıq sahəsində məhsuldarlığa tam nail olunmayıb. Xüsusən aqrotexniki qaydalara ciddi əməl edilmir. Nəticədə, məhsuldarlıq aşağı düşür. Bunların da qarşısı alınmalıdır. Bu gün o ölkələr problem yaşayırlar ki, orada ərzaq və enerji təhlükəsizliyi, sabitlik təmin edilməyib. Lakin ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi, muxtar respublikada da ərzaq və enerji təhlükəsizliyi təmin olunub. Qarşıda duran əsas vəzifə muxtar respublikada strateji məhsul olan taxıl istehsalını artırmaqdır.



Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək demişdir ki, məhsul istehsalçılarına subsidiyaların, mineral gübrələrin, kimyəvi dərmanların, güzəştli kreditlərin verilməsi, müasir meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, lizinq xidmətlərinin genişləndirilməsi, meyvə-tərəvəz emalı müəssisələrinin, istixana komplekslərinin yaradılması, taxıl və soyuducu anbarların həcminin artırılması nəticəsində əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. Ərzaq təhlükəsizliyinin təmin olunmasında taxılçılıq müstəsna əhəmiyyətə malikdir. Bunun nəticəsidir ki, əkinçiliyin vacib sahəsi olan dənli bitkilərin, xüsusilə taxıl və qarğıdalının istehsal həcminin intensiv metodlarla artırılmasına mühüm əhəmiyyət verilir. Bu il muxtar respublika üzrə əkin sahələrində aparılmış müşahidələr göstərir ki, taxıl zəmilərində bol məhsul yetişdirilmişdir. Elşad Əliyev kənd təsərrüfatı sahəsində yaradılan şəraitə və göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vasif Məmmədov, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin direktoru Əbülfət Əhmədov və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə aidiyyəti üzrə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi tədbirləri sırasında taxıl istehsalı xüsusi yer tutur. Taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır, bu sahəyə dövlət dəstəyi ilbəil artırılır. Hazırda muxtar respublikada ümumi tutumu 27 min ton olan taxıl ehtiyatı anbarı, 14 taxıl emalı müəssisəsi və 6 su dəyirmanı fəaliyyət göstərir. Həmçinin daxili bazarın qorunması, texnika və toxum təminatı, mütərəqqi suvarma şəbəkələrinin qurulması, subsidiyaların və gübrələrin verilməsi taxılçılıqla məşğul olanlar üçün geniş imkanlar açmışdır. Taxıl istehsalının artırılmasının digər bir səbəbi də buğda və arpanın sərfəli qiymətlərlə alınmasıdır. Naxçıvan Muxtar Respublikasının torpaq balansına əsasən kənd təsərrüfatına yararlı torpaqların 36 faizi, yəni 64 min hektardan çoxu əkin altındadır ki, bunun da 82 faizi – 52 min hektardan çoxu suvarılan sahələrdir. Muxtar respublikanın əkin strukturunda taxıl sahələri ümumi əkilən ərazilərin 52 faizini təşkil edir. Bu da onu deməyə əsas verir ki, taxılçılığın inkişafına əkin sahələrinin genişləndirilməsi ilə deyil, məhsuldarlığın artırılması yolu ilə nail olmaq lazımdır.





Ümummilli liderimiz Heydər Əliyevin **“Taxılçılıq kənd təsərrüfatının əsas sahələrindən biridir. Biz taxıl istehsalını ilbəil artırmalıyıq... Taxılçılığı əsas sahə hesab edərək bu işlə daha ciddi, yorulmadan məşğul olmalıyıq”** fikirlərini xatırladan Ali Məclisin Sədri aidiyyəti üzrə tapşırıqlar verərək demişdir: Ulu öndərin tövsiyələrinə uyğun olaraq muxtar respublikada strateji ərzaq məhsulu olan taxılçılığın inkişafı bundan sonra da aid qurumlar tərəfindən diqqətdə saxlanılmalı, məhsuldarlıq artırılmalıdır. Taxıl istehsalında yerli iqlim şəraitinə və xəstəliklərə davamlı, elit və yüksək reproduksiyalı toxumlardan istifadə mühüm əhəmiyyət kəsb edir. Kənd Təsərrüfatı Nazirliyi muxtar respublikanın toxuma olan illik tələbatını müəyyənləşdirməli, “Araz” Elm-İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatlarında və Naxçıvan Toxumçuluq Mərkəzində məhsuldar toxum sortları yetişdirilməli, torpaq mülkiyyətçiləri sertifikatlaşdırılmış toxumlarla təmin olunmalıdırlar.

Ali Məclisin Sədri demişdir: Dəmyə əkininin böyük iqtisadi əhəmiyyəti vardır. Muxtar respublikada taxılçılıqda dəmyə üsulundan istifadə qarşıda duran əsas vəzifələrdəndir. Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti muxtar respublika üzrə dəmyə əkin sahələrinin xəritəsini hazırlamalı, Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyətləri isə tam şəkildə əkinini aparmalıdırlar. Taxılçılıqda qarşıya qoyulan hədəf hektardan məhsuldarlığın yüksəldilməsidir. Lakin bəzi hallarda müşahidə edirik ki, eyni torpaq və iqlim xüsusiyyətlərinə malik ərazilərdə əkin aparılmasına baxmayaraq, istehsal olunmuş taxılın həcmi sahənin potensial imkanlarından aşağıdır. Ötən il Şərur rayonunda hektardan həm 65-70 sentner, həm də 13 sentner məhsul götürən torpaq mülkiyyətçiləri olmuşdur. Taxıl sahələrinin normadan artıq və ya az suvarılması da məhsuldarlığı aşağı salır. Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyətləri taxıl əkini sahələrinə suyun aqrotexniki normalarda verilməsini təmin etməli, şoranlaşmaya qarşı tədbirlər görülməli, torpaqların münbitliyi artırılmalıdır.

“Taxılın istehsalı ilə yanaşı, emalı proseslərinə də nəzarət olunmalıdır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti əhalinin keyfiyyətli una olan tələbatının ödənilməsi üçün taxıl emalı müəssisələrində və satış məntəqələrində texnoloji proseslərə, məhsulun saxlanılma şəraitinə nəzarət etməlidir. 2022-ci ildə Naxçıvan şəhərində 16, Şərur rayonunda 1302, Babək rayonunda 728, Ordubad rayonunda 55, Culfa rayonunda 1949, Kəngərli rayonunda 3508, Şahbuz rayonunda 294, Sədərək rayonunda 421 hektar olmaqla, ümumilikdə, 8273 hektar əkinəyararlı torpaqda əkin aparılmayıb ki, bunun da 4230 hektarı bələdiyyə, 1336 hektarı dövlət, 2707 hektarı isə xüsusi mülkiyyətdə olan torpaqlardır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti verilmiş tapşırıqların icrasını diqqətdə saxlamalı, görülən işlərin nəticəsi barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat verməlidir.



*Ardı 2-ci səhifədə*

Sonra Ali Məclisin Sədri muxtar respublika üzrə taxıl biçininin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, bu ilin məhsulu üçün 32 min 567 hektarda payızlıq taxıl əkini keçirilmişdir ki, onun 21 min 369 hektarını buğda, 11 min 198 hektarı arpadır. 899 hektarda yazlıq taxıl əkini keçirilmişdir ki, onun da 9 hektarını buğda, 890 hektarını isə arpa əkinləri təşkil edir. Əkinlərin 908 hektarı dəmyə sahələrdir. Taxıl biçininin optimal müddətdə keyfiyyətlə başa çatdırılması üçün 93 taxılbiçən kombayn, 690 traktor, eləcə də digər texnika və avtomobillər hazır vəziyyətə gətirilmiş, zəruri ehtiyat hissələri alınmışdır. Bundan başqa, Naxçıvan şəhərində ehtiyat hissələrin satışı bazarı və mağazalarda da lazım olan hissələr mövcuddur. Biçində iştirak edəcək kombaynların 9-u "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə, 7-si "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsə, 77-si isə fiziki və hüquqi şəxslərə məxsus texnikalardır. Həmçinin muxtar respublika ərazisində taxıl biçini dövründə sahələrdə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi üçün Daxili İşlər, Fövqəladə Hallar və Kənd Təsərrüfatı nazirliklərinin nümayəndələri tərəfindən biçinə cəlb olan kombaynlarda yanğın-texniki müayinələr aparılmışdır. Eyni zamanda intensiv biçin aparılan sahələrdə Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının 12 yanğınsöndürmə qrupu xidmət aparır.

"Araz" Elm-İstehsalat Birliyinin əkin sahələrində "Qobustan", "Əhmədağa", "Konya-2002", "Fatimə", "Bayraqdar", eləcə də "Əzəmətli-95" alçaqboylu hibrid buğda, "Qarabağ-22", "Qarabağ-33" arpa toxum sortlarından istifadə olunmuşdur. Payızlıq taxıl əkinlərində alaq otlarına qarşı qranstar, topik, puma super, xəstəliklərə qarşı toxumun dərmanlanması üçün rubin preparatlarından, şum altına isə superfosfat, qarışıq gübrə, yaz aylarında isə taxılın inkişafı üçün karbamid gübrəsi verilir.

Sonra Ali Məclisin Sədri "Araz" Elm-İstehsalat Birliyinin əməkdaşlarına təşəkkür etmişdir.

Ərazidə sınaqdan keçirilən toxum sortlarına da baxış olmuş, 0,7 hektar ərazidə 95 toxum sortunun sınaqdan keçirildiyi bildirilmişdir.

Ali Məclisin Sədri müşavirənin şəhər və rayonlar üzrə də keçirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## *"Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı"* mövzusunda II beynəlxalq konfrans keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təşkilatçılığı ilə keçirilən konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Bildirib ki, konfransın keçirilməsində məqsəd Naxçıvanın tarixi keçmişi, mədəniyyəti, təbii ehtiyatları və müasir inkişafının ən aktual problemləri ilə bağlı aparılan əsaslı tədqiqatların beynəlxalq səviyyədə təqdim edilməsi, yeni araşdırmaların təhlil və müzakirə olunmasıdır. "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" mövzusunda II beynəlxalq konfransda Amerika Birləşmiş Ştatlarından, qardaş Türkiyə Cümhuriyyətindən, Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat institutlarından, AMEA-nın Gəncə və Naxçıvan bölmələrindən, həmçinin ölkənin müxtəlif ali təhsil, elm və mədəniyyət müəssisələrində çalışan elm adamlarının onlayn iştirakı ilə keçirilir.

Naxçıvanın müxtəlif dövrlərdə Azərbaycanın dövlətçilik tarixində daşıdığı mühüm rolundan bəhs edən İsmayıl Hacıyev qədim zamanlardan günümüzədək burada mövcud olmuş dövlətçilik ənənələrimizin qorunub saxlanılmasından danışıb. Akademik arxeoloji araşdırmalar nəticəsində öyrənilmiş şəhər-dövlətlərdən başlayaraq müxtəlif dövrlərdə mövcud olan Naxçıvanşahlıq, Atabəylər dövləti, Naxçıvan tüməni, Naxçıvan xanlığı, Naxçıvan qəzası, Araz-Türk Cümhuriyyəti və Naxçıvan Muxtar Respublikası haqqında konfrans iştirakçılarını məlumatlandırıb.

Akademik İsmayıl Hacıyev Azərbaycanın bugünkü inkişafının ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin nəticəsi olduğunu vurğulayıb, bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildiyini, muxtar respublikada da uğurla həyata keçirildiyini bildirib. AMEA Naxçıvan Bölməsinin sədri elmin inkişafına göstərilən qayğıya, elm adamlarının fəaliyyətlərinə göstərilən dəstəyə, yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirib.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı "Atabəy Şəmsəddin Eldənizin Azərbaycanın cənub-qərb bölgəsində siyasi vəziyyəti dəyişdirən fəaliyyətinə dair" mövzusunda çıxış edərək 1136-cı ildə əsası qoyulan Eldənizlər dövlətinin Azərbaycanda dövlətçilik tarixinin formalaşmasında mühüm rol oynamasından danışıb. Bildirib ki, Naxçıvan şəhərinin paytaxt kimi ilk dəfə seçilməsi də məhz həmin dövrə aid edilməkdədir. Eldənizin hakimiyyətinin sonlarına yaxın bütün dövlət quruluşu sisteminin nizama salınması, hər şeydən əvvəl vassalların mərkəzi hakimiyyətlə bağlılığının möhkəmləndirilməsi, sözsüz ki, hərbi qüdrətinin gücləndirilməsi ilə bağlı idi.

Ərzurum Atatürk Universitetinin professoru, tarix elmləri doktoru Hüseyn Yurttaş "Naxçıvan abidələrinin türk-islam mədəniyyətindəki rolu" mövzusunda çıxış edərək bildirib ki, Azərbaycanın Naxçıvan diyarında türk-islam mədəniyyəti on ikinci əsrdə özünün intibah mərhələsinə çatıb. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə, Yaxın Şərq və İslam memarlığında yeni bir məktəbin əsasını qoyub. Son illər qədim türk diyarı olan Naxçıvanda qeydə alınan dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidələrin bir çoxu ilkin görünüşü qorunmaqla bərpa edilib. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da maddi mədəniyyət nümunələrinə, tarixi abidələrə, bir sözlə, milli dəyərlərimizə hörmətlə yanaşılır, müasir şəhərsalma işlərində türk-islam mədəniyyəti elementlərindən məqsədyönlü şəkildə istifadə olunur.

"Kür-Araz mədəniyyəti problemləri Azərbaycanda son arxeoloji tədqiqatlar işığında" mövzusunda çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru, tarix elmləri doktoru, professor Abbas Seyidov vurğulayıb ki, Kür-Araz mədəniyyətinin erkən mərhələsində aşkar olunmuş yaşayış binaları tikinti texnikası və konstruksiyasına görə Eneolit dövrünün eynitipli evlərini xatırladır. Naxçıvanda yer alan I Kültəpə və II Kültəpədən aşkar olunan arxeoloji materiallar Eneolit dövrünə aid öz prototiplərini təkrar edir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru Eltun İbrahimov "Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafında müasir imkanlar" mövzusunda çıxış edərək bildirib ki, müasir dövr Naxçıvanda iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişaf etdirilməsi dövrü kimi xarakterizə olunur. Ölkəmizdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunması və qeyri-neft sektorunun inkişafı istiqamətində müəyyən edilmiş strategiyaya uyğun olaraq Naxçıvan Muxtar Respublikasında həm yerli xammala əsaslanan, həm də yüksək texnologiya bazalı sənaye müəssisələrinin yaradılması işi uğurla davam etdirilir.

Sonda akademik İsmayıl Hacıyev konfransın təşkil olunmasında əməyi keçənlərə və iştirakçılara təşəkkürünü bildirib.

İkigünlük konfrans günün ikinci yarısında keçirilən bölmə iclasları ilə davam etdirəcək.

**Məcid RƏŞADƏTOĞLU**

*Muxtar respublikada digər sahələrdə olduğu kimi, daşınmaz əmlakın qeydiyyatı sahəsində də innovasiyaların tətbiqi, elektron xidmətlər sferasının genişləndirilməsi, prosedurların optimallaşdırılması və vətəndaş məmnunluğunun yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən vətəndaşlara 23 adda elektron xidmət təqdim olunur.*

## Daşınmaz əmlakın qeydiyyatı sahəsində innovasiyaların tətbiqi vətəndaş məmnunluğuna xidmət edir

Cari ilin yanvar-may ayları ərzində xidmət tərəfindən fiziki və hüquqi şəxslərə müxtəlif fəaliyyət istiqamətləri üzrə 491 elektron xidmət göstərilib. Ümumilikdə, elektron xidmətlərdən istifadə edənlərin sayı cari ilin müvafiq dövrü ilə müqayisədə 7 faiz çox olub.

Aparılmış təhlillər göstərir ki, elektron xidmət istifadəçilərinin böyük əksəriyyəti daşınmaz əmlakla bağlı xidmətlərə müraciət edir. Daşınmaz əmlak üzərində məhdudiyyət və yüklülüyün qeydiyyatı, daşınmaz əmlakın dövlət reyestrindən məlumatların əldə olunması, daşınmaz əmlakın qeydiyyatı və daşınmaz əmlak üzərində məhdudiyyət və yüklülüyün ləğvi ən çox müraciət olunan xidmətlər sırasındadır.

Bundan başqa, əmlak idarəçiliyi sahəsində onlayn xidmətlər də bu sahədə rahatlığı və operativliyi əhəmiyyətli dərəcədə artırıb. Artıq vətəndaşlar daşınmaz əmlakın yüklülüyünə dair arayışı (Forma-1) notariat ofislərində onlayn rejimdə elektron informasiya sistemləri vasitəsilə əldə etmək imkanına malikdir. Hüquq əldə edənin istəyindən asılı olaraq daşınmaz əmlaka dair bağlanmış müqavilə müraciət formasında elektron informasiya sistemləri vasitəsilə daşınmaz əmlakın elektron qeydiyyat sisteminə də göndərilə bilər. Daşınmaz əmlak üzərində əməliyyatların aparılması zamanı tələb olunan dövlət rüsumunun və xidmət haqlarının daha optimal üsullarla ödənilməsi məqsədilə "Hökumət Ödəniş Portalı" ilə daşınmaz əmlakın elektron qeydiyyat sistemi arasında inteqrasiya təmin edilib. Vətəndaşlar müvafiq xidmətlər üçün tələb olunan dövlət rüsumu və xidmət haqlarını müraciətin qeydiyyat nömrəsinə uyğun "Hökumət Ödəniş Portalı" və ödəmə terminalları vasitəsilə ödəyə bilərlər.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən torpaqların, o cümlədən daşınmaz əmlakın qeydiyyatı sahəsində yeniliklərin tətbiq olunması nəticəsində sənədləşmə prosesinə sərf olunan vaxt minimuma endirilib. Torpaqların və digər daşınmaz əmlak obyektlərinin təkrar qeydiyyatı prosesi tamamilə avtomatlaşdırılıb. Xidmətlərin geniş şəkildə elektron müstəviyə keçirilməsi isə daşınmaz əmlak sahəsində əməliyyatların daha rahat formada həyata keçirilməsinə və vətəndaş məmnunluğuna xidmət edən əsas amildir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Ötən ay 45 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb



Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin fasiləsiz və təhlükəsiz təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən daxil olan müraciətlərə əsasən iyun ayında 45 mənzil (ev) və müxtəlif təyinatlı obyekt qazlaşdırılmışdır ki, bunun 44-ü əhali,1-i isə qeyri-əhali abonentdir.

Qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılır. Ötən ay Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan Qaz avadanlıqlarının istismarı və təmiri üzrə qazpaylayıcı stansiyalarının operator peşəsinin ixtisasartırma kursu başa çatmışdır. Kursu bitirən 20 müdavimə sertifikat verilmişdir.

Muxtar respublikada əhali qrupundan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün hesabat ayında 28 mühafizə qutusu quraşdırılmışdır. Cari ilin iyun ayında Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinə *104* nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 912 çağırış daxil olmuşdur. Çağırışlara vaxtında gedilmiş, təbii qazın nəqli bərpa olunmuşdur.

İyun ayında muxtar respublikanın qaz şəbəkəsində 733 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq bu sızmalar aradan qaldırılmış, ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Naxçıvantəpədə arxeoloji qazıntılar aparılır



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyəsi ilə AMEA Naxçıvan Bölməsində yaradılan yerli arxeoloji ekspedisiya tərəfindən Naxçıvan şəhəri ərazisində yerləşən Naxçıvantəpə qədim yaşayış yerində arxeoloji qazıntılar aparılmaqdadır.***

Naxçıvan şəhəri ərazisində məskunlaşma tarixinin öyrənilməsi üçün əhəmiyyətli olan bu abidənin tədqiqinə 2017-ci ildən başlanmış, lakin pandemiya ilə əlaqədar tədqiqat işləri yarımçıq qalmışdır. Naxçıvantəpə yaşayış yerinin tədqiqi olduqca əhəmiyyətli nəticələr vermişdir. Tədqiqat zamanı Naxçıvan şəhəri ərazisində eradan əvvəl VI minillikdən başlayaraq məskunlaşma olduğu müəyyən edilmişdir.

Naxçıvantəpə yaşayış yerinin tədqiqi zamanı, həmçinin indiyədək Cənubi Qafqaz və Azərbaycanda məlum olmayan, dünya alimlərinin marağına səbəb olan Dalmatəpə mədəniyyəti aşkar olunmuşdur. Yaşayış yerində aparılan araşdırmalar zamanı basmanaxışlı keramika ilə xarakterizə olunan Qarabağın Neolit mədəniyyətinin Dalmatəpə mədəniyyətinin formalaşmasında mühüm rol oynadığı, həmçinin Naxçıvan, Qarabağ, Zəngəzur və Urmiya hövzəsinin Azərbaycanda formalaşan mədəniyyətlərin arealına daxil olduğu, Zəngəzur və Göyçə obsidianının başlıca olaraq Naxçıvan, Qarabağ və Urmiya hövzəsinin sakinləri tərəfindən istifadə olunduğu təsdiq edilmişdir. 2022-ci ilin iyun ayından davam etdirilən tədqiqat



işləri zamanı yarımqazma tipli evin qalıqları, basmanaxışlı və boyalı keramika nümunələri aşkar olunmuşdur. Naxçıvantəpə yaşayış yerində aşkar olunan arxeoloji tapıntılar Naxçıvan şəhərinin hələ qədim Azərbaycanın tərkibində mədəniyyətlərin əsas mərkəzi olduğunu təsdiq edir.

**Xəbərlər şöbəsi**

## Naxçıvan dünən

# Çətin şəraitdə

İnşaatçılarımız muxtar respublikamızın rayon, qəsəbə və kəndlərində sosial, mədəni-məişət və təsərrüfat obyektlərinin tikintisi ilə məşğuldurlar. Bir çox kollektivlər kimi ötən il bizim üçün də uğurlu olmayıb. Belə ki, il ərzində təhvil verməli olduğumuz 75 müxtəlif obyektdən ancaq onunun öhdəsindən gələ bilmişik. Məlum olduğu kimi, inşaat materiallarının qiymətlərinin xeyli qaldırılması ilə əlaqədar inşasını apardığımız obyektlərin layihə-smeta sənədləri həmin qiymətlərə uyğunlaşdırılmalı idi. Bu əməliyyat isə bir çox sifarişçi təşkilatlar tərəfindən yerinə yetirilməyib. Buna görə də təhvil obyektlərində işin ahəngi pozulub.

Bu il həmin obyektlərin imkan daxilində təhvilə hazırlanmasında ciddi səy göstərəcəyik. Lakin məlum səbəblər üzündən inşaat materialları sarıdan yenə də çətinlik çəkirik. Bunu aradan qaldırmağın yeganə yolu isə yerli tikinti materiallarından istifadə etməkdədir. Hazırda bəzi tikinti təşkilatlarımız həmin sahədə əməli addımlar atırlar. Lakin bu hələ azdır, mövcud imkanlardan maksimum istifadə etmək işimizdə əsaslı dönüş yarada bilər.

Sərhəd kəndlərimizdə sosial obyektlərin tikintisi uzun illərdir ki, bir növ yaddan çıxarılıb. İndi daha dərindən hiss edirik ki, bu sahədə xeyli gerilik var. Odur ki, həmin məsələyə diqqəti xeyli artırmışıq. Hazırda Şərur, Sədərək və Ordubad rayonlarının bir sıra kənd və qəsəbələrində müxtəlif sosial obyektlərin inşasını davam etdiririk.

Ötən il və bu il inşasına başladığımız obyektlərdə, təxminən, 27 milyon manatlıq tikinti-quraşdırma işləri aparmalı və il ərzində 80 obyekti təhvilə hazırlamalıyıq. Göründüyü kimi, işin həcmi böyükdür və indiki çətin vəziyyətdə bunun öhdəsindən gəlmək heç də asan deyil. Çünki material qıtlığı yenə də davam edir. Lakin bütün bunlara baxmayaraq, qüvvəmizi bir daha səfərbər edib təhvil obyektlərinə yönəldəcək və bu sahədə əsaslı dönüş yaradılmasına nail olmağa çalışacağıq.

***"Şərq qapısı" qəzeti***
***1 fevral 1992-ci il***

*Hər dəfə "Şərq qapısı" qəzetinin ötən əsrin 90-cı illərinin əvvəllərinə aid nömrələrini vərəqləyəndə qarşımıza, əsasən, "çatışmazlıqlar baş alıb gedir", "qıtlıq halları dözülməzdir", "insanlar nigarandırlar", "işə biganə yanaşmayaq" kimi xoşagəlməz halları tənqid obyektinə çevirən cümlələr, sözlər hakim kəsilir diqqətimizə. 2022-ci ilin muxtar respublikamızda "Sənaye ili" elan edilməsini nəzərə alıb həyatımızın, yaşayışımızın bilavasitə sıx əlaqədar olduğu tikinti sənayesi ilə bağlı yazı hazırlayanda dünənlə bağlı arxivdə "Çətin şəraitdə", "Material çatmır", "Çətinliklərlə üz-üzə" və digər sərlövhəli məqalələrdə nöqsanlarla dolu bir sıra məsələlərə rast gəldik. Günümüzlə təzadlığı gün kimi aydın olan həmin yazıları diqqətlə nəzərdən keçirdikdə tikintidə istifadə edilən ən primitiv vasitələrin belə tapılmaması, şirkət rəhbərlərinin qıtlıq hallarına qarşı haqlı narazılıqlarını, kəndlərdə illərlə inşası yubanan, yararsız vəziyyətə düşən obyektlərin "fəryad səslərini" duymaq çətin deyil. Elə isə söhbəti çox uzatmadan gəlin yuxarıda geniş şəkildə yer alan, 1992-ci il fevralın 1-də "Şərq qapısı" qəzetində işıq üzü görən "Çətin şəraitdə" başlıqlı məqalədən yola çıxaraq sənayenin bu sahəsinin zamanla necə təşəkkül tapmasına və inkişaf yoluna nəzər salmağa çalışaq...*

## və bu gün

# Material qıtlığından, yarımçıq qalan işlərdən məhsul ixracına, irimiqyaslı layihələrin icrasına...

Adıçəkilən məqalədə ilk nəzərəçarpan çatışmazlıq *"Bir çox kollektivlər kimi ötən il bizim üçün də uğurlu olmayıb. Belə ki, il ərzində təhvil verməli olduğumuz 75 müxtəlif obyektdən ancaq onunun öhdəsindən gələ bilmişik"* fikirləridir. Öncə onu, xüsusilə vurğulamaq lazımdır ki, ***"Mən ömrümün qalan hissəsini də bundan sonra xalqıma həsr edəcəyəm"***, – deyərək Azərbaycanın şanlı dirçəliş tarixini yaradan ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə olduğu kimi, ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra da sənayenin bütün sahələri ilə yanaşı, tikintidə də böyük irəliləyişlər əldə edildi. Görkəmli dövlət xadiminin əsasını qoyduğu inkişaf konsepsiyasının dəyişən dövrə xas yüksək səviyyədə icrasının nəticəsidir ki, "Çətin şəraitdə" yazısındakı tikinti şirkətinin müəyyən problemlər ucbatından işinin öhdəsindən gələ bilməməsi, obyektlərin vaxtlı-vaxtında tikilərək istifadəyə verilməməsi kimi cəmiyyəti narahatlıq məngənəsində sıxan hallar da artıq çoxdan arxada qalıb. Bu baxımdan günümüzdə nümunəvi tikinti təşkilatlarından Naxçıvan Muxtar Respublikası Şəhərsalma və Arxitektura Komitəsi, onun şəhər və rayon idarələrini, "Nəqşicahan", "Gəmiqaya", "Cahan" holdinqlərin inşaatla məşğul olan qurumlarının fəaliyyətini qeyd etmək lazımdır. İndi muxtar respublikada fəaliyyət göstərən, sözün əsl mənasında, işində mahir olan həmin şirkətlər üzərlərinə götürdükləri öhdəlikləri vaxtlı-vaxtında yerinə yetirir, başqa sözlə, hər hansı obyektin inşası indi əvvəlkindən dəfələrlə sürətli, həm də qat-qat keyfiyyətlə aparılır. Hər ilin, rübün yekun iqtisadi göstəricilərinə nəzər saldıqda aydın olur ki, insanlar tərəfindən böyük rəğbətlə, minnətdarlıq hissi ilə qarşılanan tikinti-quruculuq tədbirləri həm əhatə dairəsi, həm də həcmi baxımından zaman ötdükcə daha da genişlənir. Elə isə rəqəmlərin dili ilə tikinti-quruculuq sahəsində inkişafın, tərəqqinin necə getdiyinə baxaq: 1995-2021-ci illərdə muxtar respublikanın kəndlərində 144 kənd mərkəzi, 147 ümumtəhsil məktəbi, 192 səhiyyə ocağı tikilərək, 29 kənd mərkəzi, 91 ümumtəhsil məktəbi, 35 səhiyyə ocağı yenidən qurularaq istifadəyə verilib, lazımi kommunal təsərrüfatlar yaradılıb. Təqdirəlayiq haldır ki, tikinti sənayesinin inkişafı təkcə dövlət təşkilatlarının deyil, şəhər, qəsəbə və kəndlərdə yaşayan sakinlərin də bu sahədə fəaliyyətini xeyli gücləndirib, şəxsi vəsait hesabına da inşaat işləri uğurla reallaşdırılıb.



Dünən



Naxçıvan şəhəri

Bu gün

"Çətin şəraitdə" məqaləsində dilə gətirilən növbəti problem məsələyə diqqət yetirək: *"Məlum səbəblər üzündən inşaat materialları sarıdan yenə də çətinlik çəkirik. Bunu aradan qaldırmağın yeganə yolu isə yerli tikinti materiallarından istifadə etməkdədir. Hazırda bəzi tikinti təşkilatlarımız həmin sahədə əməli addımlar atırlar. Lakin bu hələ azdır..."* Aydın məsələdir ki, yazını qələmə alan müəllif məlum səbəb dedikdə Naxçıvanın həmin dövrdə yenicə blokada vəziyyətinə düşməsini və birinci Qarabağ müharibəsi zamanı yaşananları, ölkədə hakimiyyəti ələ alan, xalqın taleyinə biganə yanaşan vəzifə hərislərinin "oyunları"nı nəzərdə tutur. Təbii ki, siyasi sabitlik olmayan yerdə hər hansı iqtisadi uğurdan söhbət gedə bilməz. Məhz 1993-cü ildən sonra ölkəmizdə bərqərar olunan siyasi vəziyyət muxtar respublikamızda əvvəllər fəaliyyətini dayandıran sənaye müəssisələrinin yenidən həyata vəsiqə almasına, yerli inşaat materialları istehsal edən yeni obyektlərin yaradılmasına imkanlar açdı. Ümumilikdə, bu gün muxtar respublika üzrə "Nəqşicahan İnşaat", "Gəmiqaya Beton Məmulatları Kompleksi", "Naxçıvan Sement Zavodu", "Gəmiqaya Kərpic Kompleksi", "Cahan İnşaat" (tərkibində Tikinti-Quraşdırma, Tikinti-Tamamlama, Maşın-Mexanizm, Su və Kanalizasiya Mənzil-Tikinti idarələri, Beton Məhsulları Zavodu, Qapı-Pəncərə Fabriki yaradılıb), "Azelektrod" Məhdud Məsuliyyətli cəmiyyətlərində, Avtomobil Yolları Dövlət Agentliyində və digər özəl təşkilatlarda, sahibkarlıq subyektlərində tikinti materialları istehsal olunur, eyni zamanda onlarla satış mərkəzlərində sərfəli qiymətə satışı həyata keçirilir.



Təqdiredici məqam odur ki, indi tikinti məhsulları istehsal edən sahələrdə kəmiyyətdən öncə keyfiyyətə üstünlük verilməklə bərabər, Naxçıvanın zəngin təbii sərvətlərindən istifadə olunmaqla xaricdən xammal asılılığı da aradan götürülüb. "Naxçıvan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin timsalında fikirlərimizə aydınlıq gətirək: 2016-cı ildən fəaliyyət göstərən müəssisədə illik istehsal gücləri 12 min ton olan gips, 600 min ədədlik gipskarton lövhə, 150 min ton olan sənaye qumu, 120 min kubmetr olan məsaməli beton və 600 ton olan məsaməli beton yapışdırıcı zavodlar yaradılıb. Həmin istehsal sahələrində astar, üzlük suvaq, kartonpiyer, inşaat, dərz dolğu gipsləri, müxtəlif qalınlıqda standart, nəmədavamlı, odadavamlı gipskarton lövhələr, sönmüş, sönməmiş əhənglər, beton bloklar və digər tikinti məhsulları hazırlanır. Yuxarıda qeyd etdiyimiz əsas məqam, yəni xammallar (gips, əhəngdaşı, reolit, Sədərək qumu) tamamilə daxili imkanlar hesabına ödənilir. Qum adından da məlum olduğu kimi Sədərəkdən gətirilir, qalanları isə Kəngərli rayonu ərazisindəki təbii ehtiyatlar vasitəsilə təmin edilir. Keyfiyyət amili barədə isə onu demək olar ki, istehsal olunan bütün məhsulların əsas keyfiyyət üstünlüyü ekoloji sağlam materialdan hazırlanmasıdır. Nümunə üçün gipsi götürək: istifadə edildiyi divar "nəfəs alır", divarlarda izolyasiya qatı yaradır, istifadəsi asandır, ustanı yormur. Boya və divar kağızı üçün divarların suvanmasında əla vasitədir, hər növ dekorativ məmulatların hazırlanması imkanı mövcuddur, gipskarton lövhələrin birləşmə yerlərində çatlamalara qarşı uzunömürlülük yaradır.

Müstəqilliyin bərpasından sonra görülən məqsədyönlü tədbirlərin, icrası uğurla reallaşan layihələrin sayəsində bu gün nəinki tikinti materiallarına olan tələbat daxili imkanlar hesabına ödənilir, hətta bəzi müəssisələrin xaricə ixrac imkanları da genişlənir. Tikinti işlərində ən çox istifadə edilən üzlük daşların istehsalında nümunə olan "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin bu istiqamətdəki fəaliyyəti olduqca diqqətəlayiqdir. Belə ki, Kəngərli rayonunun Qarabağlar və Çalxanqala kəndləri ərazisindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün bu müəssisəyə gətirilərək yüksək keyfiyyətlə istehsal olunur. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Gündəlik maksimum istehsal gücü 2000 kvadratmetr olan müəssisədə klassik ağ və qara suyollu travertin məhsulları ilə yanaşı, Naxçıvan sədəfi və qara inci mərmər, siyenit də istehsal edilir. Mərmər, travertin, dekorativ daş kimi tikinti məhsulları daxili tələbatı ödəməklə yanaşı, Gürcüstan və Türkiyəyə də ixrac olunur.

"Çətin şəraitdə" sərlövhəli məqalədə yer alan *"Sərhəd kəndlərimizdə sosial obyektlərin tikintisi uzun illərdir ki, bir növ yaddan çıxarılıb. İndi daha dərindən hiss edirik ki, bu sahədə xeyli gerilik var..."* narahatlıq doğuran fikirlər də bu gün elə arxivin bir küncündə qalıb. Əvvəlki yazılarımızda da dəfələrlə qeyd ediyimiz kimi, muxtar respublikamızda tikinti-quruculuq işlərinə vahid plan üzrə kompleks şəkildə ilk olaraq məhz ucqarlardan başlanılıb. Bu gün istənilən sərhəd yaşayış məntəqəsinə uzanan yolu tutub getsən, çatacağın ünvanda bir-birindən bənzərsiz sosial obyektlərin, o cümlədən geniş asfalt yolların, abad küçələrin, müasir məktəblərin, mədəniyyət, səhiyyə ocaqlarının şahidi olarsan. Bu amil nəinki muxtar respublikamızın sakinləri, buraya üz tutan yerli və xarici qonaqların da böyük rəğbətinə səbəb olur. Xarici ölkələrin rəsmi nümayəndələri, sadə vətəndaşları Naxçıvanın təmizliyi, sabitliyi ilə yanaşı, geniş quruculuq infrastrukturunun, kəndlərdə mərkəzdən heç də geri qalmayan təhsil, mədəniyyət, səhiyyə müəssisələrinin fəaliyyət göstərməsinin beynəlxalq standartlara tam cavab verdiyini dilə gətirir, xalqın gələcəyinə yatırım kimi görülən işlər barədə yüksək fikirlər səsləndirirlər. Muxtar respublikamızın ən ucqar, sərhəd bölgələrindən olan, inkişafı, tərəqqisi ilə düşmənə gözdağı verən Sədərəyin timsalında da bunu aydın görmək mümkündür. 2021-ci ilin iqtisadi göstəriciləri də tikinti sənayesinin inkişafının rayonun sosial-iqtisadi mənzərəsinə böyük təsirindən xəbər verir. Belə ki, Sədərək rayonunda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2021-ci ildə bütün maliyyə mənbələrindən əsas kapitala 25 milyon 421 min 900 manat həcmində investisiya yönəldilib ki, bunun da 23 milyon 299 min 200 manatı və ya 91,6 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Bu dövrdə Bayraq Meydanının inşası başa çatdırılaraq istifadəyə verilib, Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsinin tikintisi davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması, tikinti materiallarının əlçatanlığı fərdi yaşayış evlərinin inşasına da müsbət təsir göstərib, 2021-ci ildə əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, rayonda 6 min 658 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib...

"Çətin şəraitdə" məqaləsinin son hissəsində diqqətçəkən amil isə maliyyə vəsaiti həcminin çoxluğu, işin keyfiyyətinin yox, kəmiyyətinin əsas hədəf götürülməsidir: *"Ötən il və bu il inşasına başladığımız obyektlərdə, təxminən, 27 milyon manatlıq tikinti-quraşdırma işləri aparmalı və il ərzində 80 obyekti təhvilə hazırlamalıyıq. Göründüyü kimi, işin həcmi böyükdür və indiki çətin vəziyyətdə bunun öhdəsindən gəlmək heç də asan deyil"*. Nümunə üçün bildirək ki, Naxçıvan Muxtar Respublikası Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 2021-ci ildə muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 161 milyon 130 min manat investisiya yönəldilib ki, bunun da 153 milyon 439 min manatı və ya 95,2 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Həmin vəsait hesabına müxtəlif təyinatlı onlarla obyekt tikilərək və yaxud yenidən qurularaq istifadəyə verilib. Ötən il muxtar respublika üzrə, ümumilikdə, 355 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 149 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib. Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2021-ci ildə 10 kənd mərkəzi istifadəyə verilib, 3 kənd mərkəzinin tikintisi davam etdirilib. Müqayisə üçün onu da bildirmək yerinə düşər ki, 2022-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala ayrılan 411 milyon 247 min 300 manat vəsaitin 396 milyon 230 min 900 manatı və ya 96,3 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Sadalanan faktlar da bir daha təsdiq edir ki, 90-cı illərin əvvəllərində iki ilə icrası qeyri-mümkün görünən inşaat işləri bu gün bir neçə ayın içərisində tamamilə asan və keyfiyyətli şəkildə reallaşdırılır...

*Görkəmli filosof Tomas Karlayl deyirdi ki, dünya tarixi dahilərin bioqrafiyasıdır. Böyük alman filosofu Fridrix Nitşe isə "Şəxsiyyətləri tarix yaratmır, şəxsiyyət tarixi yaradır" fikrini irəli sürmüşdür. Hər iki fəlsəfi fikir Azərbaycanın qüdrətlənməsi naminə bütün həyatını, ömrünü həsr edən dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyevin zamanı qabaqlayan böyük siyasi ideologiyasında, reallaşan mütərəqqi ideyalarında təcəlla etməklə mükəmməl formada təsdiqini tapır. Bu siyasi ideologiyanın dövlət başçımız cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində muxtar respublikamız bu siyasətə sadiqlik, inkişaf konsepsiyasının işığında ötən əsrin 90-cı illərinin qaranlıq mənzərəsindən qurtulub, material qıtlığından, yarımçıq qalan işlərdən məhsul ixracı, irimiqyaslı layihələrin icrası dövrünə, ən əsası da tarixə "Sənaye ili" kimi möhtəşəm uğurları ilə həkk olacaq 2022-ci ilə qədəm qoyub, əmin addımlarla irəliləyir. Bu müdrik yolun ziyasında daha böyük uğurlar, nailiyyətlər diləyi ilə...*

**Nail ƏSGƏROV**

# Acarıstanlı uşaqlar qədim diyarımızın dünya şöhrətli şəfa ocağında

*Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında 2012-ci ildən başlayaraq həyata keçirilən qarşılıqlı rəsmi səfərlər müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlığın əsasını qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı nəticəsində hər il Acarıstan Muxtar Respublikasından aztəminatlı ailələrdən olan və tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən uşaqların Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicəsi təşkil edilir. Səhiyyə sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq iyulun 5-də tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən acarıstanlı aztəminatlı ailələrdən olan 28 uşaq, onları müşayiət edən 7 valideyn və 1 həkim Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu keçmək üçün Naxçıvana gəliblər. Qonaqları Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov salamlayaraq onların burada effektli müalicələrinə dövlət tərəfindən nəzarət olunacağını bildirib. Qonaqlar "Duzdağ" otelində yerləşməklə adıçəkilən şəfa ocağında müalicə alıb, həmçinin Naxçıvanın bir sıra gəzməli-görməli yerləri ilə tanış olurlar. Biz də acarıstanlı uşaqlar və valideynləri ilə həmsöhbət olmaq üçün Duzdağ Fizioterapiya Mərkəzinə yollandıq.*



Mərkəzin baş həkimi ***Heyran Qazıbəyova*** ilə söhbət zamanı qeyd etdi ki, bu gün sağlamlığa və rifaha xidmət edən səhiyyə sahəsi muxtar respublikamızda uğurla inkişaf edir. Artıq Naxçıvan səhiyyə turizmi baxımından da ideal bölgəyə çevrilib. Bu turizm növünün əsas ünvanlarından olan Duzdağ Fizioterapiya Mərkəzi unikal müalicəvi keyfiyyətlərinə görə seçilir və dünyada tanınır. Bir çox xarici ölkələrdən buraya təbii üsullarla bronxial-astma və digər yuxarı tənəffüs yolları xəstəliklərindən müalicə olunmaq üçün gəlirlər. Bu il də Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı, Türkiyə, İran, Rusiya, Qazaxıstan, ABŞ, Kanada və digər ölkələrdən də insanlar şəfa tapmaq üçün buraya üz tuturlar. Hazırda Acarıstan Muxtar Respublikasından gələn uşaqların Duzdağ Fizioterapiya Mərkəzində hazırda müalicəsi təşkil olunur. Onlar burada laborator, USM, allerqoloq-pulmonoloq müayinələrindən keçərək speleoterapiya, yeni duz terapiyası olunurlar. İnanırıq ki, onlar tez bir zamanda sağlamlıqlarına qovuşacaqlar.





Burada Acarıstandan gələn həkim ***Veriko Takidze*** ilə söhbət imkanı əldə etdik. Həkimin dediklərindən: – Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında səhiyyə sahəsində sıx əməkdaşlıq mövcuddur. Hər iki tərəfdən müxtəlif müalicə və reabilitasiya mərkəzləri arasında qarşılıqlı əlaqələr əsasında acarıstanlı uşaqların müalicə üçün Naxçıvana növbəti səfəri təşkil edilib. Onlar insan sağlamlığı üçün böyük önəm daşıyan Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunurlar. Həmçinin Naxçıvanın bir çox tarixi və mədəni yerlərini gəzməklə bura haqqında çoxlu informasiya qazanırlar. Bizə yaradılan hərtərəfli şərait insanlarımızı bir-birinə yaxınlaşdırır, eyni zamanda Naxçıvanı görmək, həmçinin müalicə məqsədilə gəlmək istəyənlər üçün böyük maraq oyadır. Duzdağ Fizioterapiya Mərkəzində müayinə və müalicə prosesi üçün mövcud olan unikal şərait buraya gələn acarıstanlıların sayını da hər dəfə artırır. Bizim üçün yaradılan hərtərəfli şəraitə və göstərilən qonaqpərvərliyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımızı bildiririk.

***Data Aznaurişvili*** ilə söhbət zamanı öyrənirik ki, 2006-cı ildə anadan olub və buraya Batumidən gəlib. Sağlamlıq imkanları məhdud uşaqdır. Müsahibim qeyd etdi ki, Naxçıvana üçüncü dəfədir gəlir: – Bura mənə çox doğmadır. Hər gəlişimdə insanların gülərüz və qonaqpərvərliyinin şahidi oluram. Müalicə almaqla bərabər, Naxçıvanda, demək olar ki, bütün muzeyləri gəzib görmüşəm. Naxçıvan təmiz və qədim abidələrlə zəngin şəhərdir. Bu məni daha çox cəlb edir. Digər dostlarım, yoldaşlarım arasında da Naxçıvana maraq böyükdür. Müalicə aldığım mərkəz sağlamlığımda müsbət irəliləyiş yaradıb. Hər dəfə gələndə özümü daha gümrah hiss edirəm. Burada tam olaraq sağlamlığıma qovuşacağıma inanıram.

***Liza İmnadze*** dedi: – 21 yaşım var. Bu, Naxçıvana dördüncü səfərimdir. Bu diyarı çox sevirəm. İnsanlar mənə doğma və əzizdir. Duzdağda bizə göstərilən xidmətlər üçün minnətdarlıq edirik. Duzdağ, həqiqətən də, möcüzəvi və əvəzolunmaz bir yerdir. Bura yeraltı müalicə mərkəzi kimi diqqətimi cəlb edir və müalicə üsulu da fərqlidir. Mən də tənəffüs yolları xəstəliyindən əziyyət çəkirəm. Burada həkimlər tərəfindən müxtəlif müayinələrdən keçdim və həkimlərin xüsusi qayğısı ilə qarşılaşdım. İndi özümü çox yaxşı hiss edirəm və buradan getmək istəmirəm.

Acarıstanlı uşaqlardan birinin nənəsi ***Nərgiz Jordaniya*** söhbətimizə qoşuldu. 68 yaşlı müsahibim onlar üçün yaradılan şəraitdən ağızdolusu danışdı: – Özüm və nəvəm buraya müalicə üçün gəlmişik. Nəvəm bronxial-astma xəstəsidir. Müalicə mərkəzində effektli müalicə üçün hər cür şərait vardır. Mərkəzdəki duz şaxtasında aparılan müalicə neçə-neçə xəstənin dərdinə çarədir. Böyüklərə və kiçiklərə ayrı-ayrılıqda təyin edilən müalicə kursu dünyanın ən böyük neməti olan cansağlığına qovuşdurur. Bu müalicə mərkəzinin diqqətimi çəkən bir xüsusiyyəti də havaların isti keçməsinə baxmayaraq, temperaturun dəyişməz qalmasıdır. Biz burada olarkən Naxçıvanın bir çox tarixi yerlərini də gəzdik. Qədimliyi və müasirliyi vəhdət təşkil edən bu şəhər özünün səliqə-sahmanı ilə də seçilir. Buraya gəlməyimizdə böyük rol oynayan insanlara – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və bizim səhiyyə nazirinə minnətdarlığımı bildirirəm. Buradan yüksək təəssüratlarla şəhərimizə qayıdacağıq.

***Tinatin Ktamadze*** 2009-cu ildə anadan olub. Naxçıvana ikinci dəfədir, gəlir. Müsahibim dedi: – Şəhərin təbiəti ilə yanaşı, havası da çox təmiz və gözəldir. Xüsusən də fizioterapiya mərkəzindəki yeraltı tunel, sabit temperatur, duzun spesifik qoxusu bizdə qeyri-adi təəssürat yaradır. Tuneldəki ağ duz layları insanı cəlb edir. Bu gözəllikləri, təbiət möcüzələrini gördükdən sonra Naxçıvanın təbliğinə, tanıdılmasına mən də bir gənc olaraq töhfə verməyə çalışacağam. Sosial şəbəkə səhifələrimdə Naxçıvanla bağlı təəssüratlarımı bölüşəcəyəm.

Duzdağ Fizioterapiya Mərkəzinə müalicə üçün gələnlərdən biri də ***Ana Nemsadze***dir. Müsahibim bildirdi ki, ilk günlərdən səhhətində yaxşılaşma hiss edir, bu onu çox sevindirir. Artıq ikinci dəfədir ki, müalicə üçün buraya gəlir və çox yaxşı nəticələr alır: – Duzdağ, həqiqətən də, möcüzəli yerdir. Çünki Duzdağda xəstələr heç bir kimyəvi vasitələr olmadan, sadəcə, şaxtalarda nəfəs almaqla müalicə olunurlar. Yeri gəlmişkən onu da qeyd edim ki, "Duzdağ" otelində də bizə yüksək xidmət göstərilir. Boş vaxtımızda Naxçıvanın görməli yerləri ilə də tanış olmaq imkanı əldə etdik. Bura olduqca səliqəli, təmiz və abad məkandır. Çox zəngin tarixiniz, maraqlı abidələriniz vardır.

Valideyn ***Nərgiz Kataqidze***: – Müalicə üçün birinci dəfədir ki, Naxçıvana gəlirəm. Bronxial-astma xəstəliyindən əziyyət çəkirəm. Demək olar ki, dünyanın bir çox ölkələrində tanınmış həkimlərin qəbulunda olsam da, heç bir müsbət nəticə əldə edə bilməmişəm. Duzdağ Fizioterapiya Mərkəzi haqqında burada müalicə olunan həmyerlilərimizdən eşitmişdim. Onlar da əvvəlki illərdə bu müalicə ocağında şəfa tapıblar. Mən də qərara gəldim ki, müalicə üçün buraya üz tutum. Onu da qeyd edim ki, bu müalicə ocağını dünyada daha geniş tanıtmağa ehtiyac vardır. Çünki mənim kimi milyonlarla insan bu xəstəlikdən əziyyət çəkir. Hazırda 14 günlük müalicənin üçüncü günündə artıq özümü çox yaxşı hiss etməyə başlamışam. Ümidvarıq ki, müalicə müsbət nəticələr verəcək və gələcək illərdə də bu müalicə mərkəzindən faydalanacağıq.

*İnanırıq ki, qədim və ulu diyarımızı həm də ecazkar şəfaverici məkan kimi tanıdan, səhiyyə turizmi baxımından dünya əhəmiyyətli müalicə ocağı olan Duzdağ Fizioterapiya Mərkəzi acarıstanlı qonaqlarımız üçün də düşərli olacaq, Naxçıvanımızı tarixilik, müasirlik, turizm əhəmiyyətliliyi baxımından bir daha dünyaya tanıdacaq.*

✍ Güntac ŞAHMƏMMƏDLİ

✍ Aytac CƏFƏRLİ

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası iyul ayının 7-də Sədərək rayonunda təşkil olunub.*

## Sədərək rayonunda əmək yarmarkası təşkil olunub



Tədbirdə çıxış edənlər bildiriblər ki, əmək yarmarkaları işaxtaran vətəndaşların işlə təmin olunması istiqamətində mühüm əhəmiyyət kəsb edən aktiv məşğulluq tədbirlərindən hesab olunur. Yarmarkaların keçirilməsində əsas məqsəd işəgötürənlərin qısa vaxt ərzində müvafiq tələblərə cavab verə bilən kadr seçiminə, işaxtaran vətəndaşların isə işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir.

Bildirilib ki, əmək yarmarkalarında müəssisələrdə olan vakant iş yerləri işaxtaran vətəndaşlara təklif olunur və onlara seçdikləri iş yerlərinə göndərişlər verilir, peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapılmasında çətinlik yaranan şəxslər peşə hazırlığına cəlb olunurlar. Həmçinin bu tədbirlərdə vətəndaşların ödənişli ictimai işlərə, özünüməşğulluq proqramına cəlb edilmələri üçün də qeydiyyatı aparılır.

Qeyd edək ki, hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 10 müəssisədən 67 boş iş yeri təqdim edilib. Nəticədə, 7 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 8 nəfərin özünüməşğulluq proqramına, 3 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

**Naxçıvan Muxtar Respublikası**
**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## II ixtisas qrupu üzrə növbəti qəbul imtahanı keçirilib

*İyulun 7-də Dövlət İmtahan Mərkəzi II ixtisas qrupu üzrə qəbul imtahanı keçirib.*



Respublikanın 12 şəhər və rayonunda təşkil olunan imtahan $10^{00}$-da başlanıb və 3 saat davam edib. İmtahan keçirilən şəhər və rayonlarda 67 imtahan binası, 1177 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 67 ümumi imtahan rəhbəri, 195 imtahan rəhbəri, 1474 nəzarətçi-müəllim, 167 buraxılış rejimi əməkdaşı, 67 bina nümayəndəsi ayrılıb. İmtahanda 15 min 736 abituriyent iştirak edib.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 12, 15 nömrəli və Heydər Əliyev adına tam orta məktəblərdə təşkil edilib. 670 abituriyentin iştirak etdiyi imtahanın keçirilməsi üçün 58 zal, 9 rəhbər, 70 nəzarətçi ayrılıb.

Nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Cüdo üzrə növbəti seminarlar




*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində Azərbaycan Cüdo Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Güləş Federasiyasının təşkilatçılığı ilə cüdoçular üçün növbəti seminar keçirilib.*

Azərbaycan Respublikasının Əməkdar məşqçisi Azər Bağırov, cüdo üzrə dünya və Avropa çempionu Elçin Mayılov və usta cüdoçuların dünya və Avropa çempionu Azər Fətullayevin iştirakı ilə keçirilən seminarda Naxçıvan Muxtar Respublikasının cüdoçuları ilə yanaşı, Bakının "Neftçi", "Çempion" və "Şahin" idman klublarının 100-dən çox idmançısı iştirak edib.

Tədbirdən öncə çıxış edənlər keçirilən seminarın mahiyyəti barədə danışıb, idmançıları məlumatlandırıblar.

Praktik olaraq keçirilən seminar əvvəlcə Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində təşkil edilib. Bu gün isə cüdoçular Aprel döyüşləri şəhidi Toğrul Məmmədovun xatirəsinə həsr olunan Naxçıvan şəhər açıq turnirində mübarizəyə başlayacaqlar.

## Muxtar respublika çempionatı davam edir

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan minifutbol üzrə muxtar respublika çempionatı keçirilir.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Futbol Federasiyasının birgə təşkil etdiyi çempionatda 2011-ci il təvəllüdlü futbolçular mübarizə aparırlar.

8 komandanın iştirak etdiyi muxtar respublika çempionatında artıq finala yüksələn komandaların adları məlum olub. Belə ki, çempionatın həlledici qarşılaşmasında "Araz-Naxçıvan" və "Şərur" komandaları üz-üzə gələcək. Üçüncü yer uğrunda görüşdə isə azarkeşlər "Culfa"- "UGİM Naxçıvan" görüşünə şahidlik edəcəklər.

Qeyd edək ki, görüşlər sabah keçiriləcək və qalib komandalar təşkilatçılar tərəfindən mükafatlandırılacaq.

✍ Ceyhun MƏMMƏDOV

## Taxıl məhsullarının qəbulu haqqında məlumat

"Gəmiqaya Taxıl Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti aşağıdakı qiymətlərlə məhsul qəbulunu həyata keçirir.

*1. Buğda – 0,60 AZN*
*2. Arpa – 0,48 AZN*

Qeyd: Təhvil verilən məhsulların dəyəri yerində ödənilir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 605